# Özəl sektorun peşə təhsilinə cəlbi

## Peşə təhsili müəssisələrinin bazarın tələblərinə uyğunluğunu artırmaq üçün layihə həyata keçirilir

**Müasir dünyada peşə təhsil sisteminə təkcə təhsil sisteminin bir elementi kimi baxılmır. Daha çox iqtisadiyyatın və sənayeləşmənin elementi kimi yanaşılır. Bu baxımdan, peşə məktəblərinin şəbəkəsinin yenilənməsi və müasir peşələrə yönəldilməsi istiqamətində bizim ölkəmizdə də layihələr həyata keçirilir. Peşə təhsili pilləsi üzrə özəl sektor ilə əməkdaşlıq isə bu sahənin inkişafı üçün prioritet istiqamət sayılır.**









Ölkə iqtisadiyyatının getdikcə inkişaf etməsi, yeni iş yerləri və sahələrinin yaradılması ilə əlaqədar peşə təhsilini sahəsində hazırlanan kadrlara ehtiyac da getdikcə artır. Özəl şirkətlərin peşə təhsili sahəsinə cəlb edilməsi də məhz bu məqsəddən irəli gəlir. Həmçinin işəgötürənlərin ən son tələblərinə cavab verən bacarıqlı kadrların hazırlanması, sənaye sahəsində, aqrar sektorda və s. məşğulluğun təmin olunması, peşə təhsili sahəsində ən çox müzakirə olunan və həllini gözləyən məsələlərdəndir.

### BİZNES SEKTOR BU SAHƏYƏ GƏLƏRSƏ...

Təhsil ekspertləri günün tələbinə uyğun olaraq peşə təhsili pilləsi üzrə özəl sektor ilə əməkdaşlıq çərçivəsini genişləndirməyə ehtiyacın olduğunu bildirirlər. O cümlədən bəzən özəl sektorun peşə təhsili sahəsinə lazımı qədər diqqət yetirmədiyini, bu sahədə mövcud problemlərin olduğunu da qeyd edirlər. "Biznes sektor bu sahəyə gələrsə, özünə lazım olan sifarişləri verə, həm də lazım olan kadrlardan istifadə edə bilər. Həm də yeni ixtisas sifariş verib, gələcəkdə onun hazırlanmasını gündəmə gətirə bilər. Çünki texniki peşə təhsili ümumi təhsilin tərkib hissəsi olmaqla, ölkənin sosial-iqtisadi inkişafına təkan verən aparıcı sahələrdən biridir"- deyə fikirlər birmənalıdır.

### PEŞƏ TƏHSİLİNİN CƏLBEDİCİLİYİNİ ARTIRMAQ

Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və Peşə Təhsili üzrə Dövlət Agentliyi (PTDA) ilə birgə həyata keçirilən layihə də peşə təhsil müəssisələrində özəl sektorun peşə təhsili sahəsinə diqqətini yönəltmək məqsədi daşıyır. Layihə Qəbələ, Quba, Saatlı, Bakı, Gəncə və Şəkidə yerləşən bir sıra peşə təhsili mərkəzlərində özəl sektor nümayəndələrini Dəyirmi masa ətrafına toplayıb. Kənd təsərrüfatı, otel menecmenti və qonaqpərvərlik, qida istehsalı, suvarma sistemləri üzrə ixtisaslaşmış 35 şirkətin nümayəndəsi peşə təhsili və təlimi (PTT) üzrə mütəxəssislərlə, o cümlədən mövzu ilə əlaqədar tədqiqat qrupu ilə müzakirələr aparıblar. Məqsəd ölkədəki özəl sektor şirkətləri ilə əlaqələri gücləndirmək və onları peşə təhsili sahəsində gedən proseslərə yaxından cəlb etməkdir.

**BMRİP-dən "Kaspi"yə** verilən məlumata görə, "Gələcək üçün peşə təhsili və təlimi: Azərbaycanda qabaqcıl peşə təhsili mərkəzlərinin yaradılmasına dəstək" layihəsi səriştə əsaslı tədrisin təşkilinə dəstək olmaq üçün peşə təhsili müəssisələrinin müasirləşdirilməsinə xidmət edir. Məqsəd peşə təhsilinin cəlbediciliyini və əmək bazarının tələblərinə uyğunluq səviyyəsini artırmağa kömək etməkdir.



### GƏLƏCƏK KADRLARIN YETİŞDİRİLMƏSİNƏ İSTİQAMƏT

Peşə məktəblərinin mövcud əmək bazarındakı rolunu dəyərləndirən **Layihənin koordinatoru Zəhra Əmrahova** qeyd edir ki, özəl sektor və peşə təhsili müəssisələrinin münasibəti çox sıx və qarşılıqlı olmalıdır: "Özəl şirkətlər cari bazarın tələb və standartlarını formalaşdırır və ən son məlumat sahibidir. Bu bilgi və təcrübə, həmçinin yenilənən tələblər birbaşa olaraq peşə təhsil müəssisələrinə ötürülməli və gələcək kadrların yetişdirilməsinə istiqamət verməlidir. Həmçinin, PTM-lər də yeni çağırışları özəl sektorla paylaşa bilməli və bazarın yönləndirilməsinə təsir etməlidir. Məqsədimiz bazarın tələblərinə uyğun kadrları yetişdirmək və bu istiqamətdə təhsili müasirləşdirməkdir. Tələb və təklif, ümumilikdə bu proses ikitərəfli və daima yenilənəndir".

Layihənin məqsədindən danışan BMTİP təmsilçisi bildirir ki, əsas məqsəd Azərbaycandakı peşə təhsili müəssisələrinin daha da müasirləşdirilməsi və onların cari bazarın tələblərinə uyğunluğunu artırmağa dəstək olmaqdır: "Bu amalı əsas tutaraq, çoxsaylı fəaliyyətlər icra edilir və özəl sektorun da prosesə cəlb edilməsi bu fəaliyyətlərin əsas komponentlərindəndir".

### PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

Layihə koordinatorunun sözlərinə görə, hazırda silsilə şəkildə baş tutan tədbirlərdə əsas müzakirə mövzuları peşəyə olan marağın artırılması üçün işəgötürənlərin fikrinin öyrənilməsi, peşə təhsili müəssisələri ilə əməkdaşlıq imkanlarıdır: "Həmçinin tələbələrin təcrübə proqramları, iş yerində öyrənmə konseptinin və hər hansı birgə biznes imkanının müzakirəsi davam edir.

### BEYNƏLXALQ EKSPERTLƏRİN CƏLBİ

Layihə koordinatoru peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində hazırda həyata keçirilən işlərdən danışaraq günümüzün tələblərinə cavab verən ixtisasların təşviqinin vacib olduğunu bildirir. Müasir standartlara cavab verən emalatxanaların yaradılması da prioritetdir: "Müəllim və pedaqoji heyətin bilik və bacarıqlarının artırılması, sahə üzrə öncül təcrübələrin öyrənilməsi və tətbiqi üçün beynəlxalq ekspertlərin cəlb edilməsi əsas fəaliyyət istiqamətləridir. O cümlədən, peşə təhsili istiqamətində marağı olan müvafiq potensiallı şəxslərin təlim proqramlarına cəlb edilməsinə ehtiyac var".

### ÖZƏL SEKTORDAN GÖZLƏNTİLƏR

Şirkətlərin məzunlara iş şəraitinin yaradılmasına dəstəyinə gəlincə, koordinator bildirir ki, hazırda bu istiqamətdə müvafiq araşdırma qrupu prosesə cəlb edilib və çoxsaylı özəl sektor şirkətləri ilə sorğu aparılır: "Layihənin bu istiqamətdəki işlərinə nəzərən deyə bilərik ki, özəl sektor üçün müəyyən gözləntilər formalaşır. Məsələn, peşə tələbələrinin istehsal təcrübəsi keçmələri üçün şirkətlərin müəssisələrində imkan yaratmalarına ehtiyac var. Tədris vəsaitləri, kurikulumların hazırlanmasında yaxından iştirak etmələri, öz mütəxəssislərinin peşədə istehsalat dərslərinə cəlb edilməsinə imkan yaratmaları vacibdir. O cümlədən, iş yerində öyrənmə konsepsiyasına dəstək olmaları, peşə təhsil müəssisələri ilə birgə hər hansı yeni biznes imkanlarının yaradılmasına maraqlı olmaları əsas gözləntilərdir".

**Təranə Məhərrəmova**